Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

# Pandemiya və Qarabağ müstəvisində böyük Zəfərimizə diaspor töhfəsi... Prezidentin gözündən heç nə yayınmır...

## 14-cü istiqamət: Diaspor quruculuğu, lobbiçilik və dünya azərbaycanlılarının həmrəyliyi

**Prezident İlham Əliyev dünya azərbaycanlılarını təbrik edib. Prezidentin təbrik müraciətində deyilir:**

"Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə sizi ürəkdən təbrik edir, hər birinizə səmimi arzu və diləklərimi çatdırıram.

2020-ci ili bütün dünyada koronavirus pandemiyası ilə gərgin mübarizə şəraitində başa vururuq. Yaranmış vəziyyətdən minimum itkilərlə çıxmaq üçün Azərbaycan hökuməti ilk günlərdən ardıcıl tədbirlər həyata keçirmişdir. Bu addımlar, habelə Azərbaycanın köməyə ehtiyacı olan dövlətlərə humanitar yardımları Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən yüksək qiymətləndirilmişdir.

Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının və 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın təşəbbüsü ilə hər iki təsisatın COVID-19-a qarşı mübarizəyə həsr olunmuş videoformatda Zirvə görüşü baş tutmuşdur.

Cari ilin dekabr ayında Qoşulmama Hərəkatının sədri qismində Azərbaycanın təşəbbüsü əsasında və 150-dən artıq dövlətin dəstəklədiyi BMT Baş Assambleyasının koronavirusa qarşı dövlət və hökumət başçıları səviyyəsində Xüsusi Sessiyası keçirilmişdir. Bu, Azərbaycanın qlobal proseslərdə fəal iştirakının, ölkəmizə olan hörmətin, beynəlxalq dəstəyin əyani göstəricisidir.

### Milli dövlətçilik tariximizdə və xalqımızın yaddaşında əbədi yaşayacaq şanlı Zəfər…

Ermənistanın danışıqlar prosesini sarsıdan təhrikçi açıqlamaları və əməlləri, iyul ayında dövlət sərhədinin Tovuz istiqamətində törətdiyi hərbi təxribat, qoşunlarını təmas xəttinə cəmləşdirməsi, terror əməllərini törətmək üçün diversiya qruplarını göndərməsi onun növbəti çirkin niyyətlərindən xəbər verirdi. Bu ilin sentyabr ayında BMT Baş Assambleyasının 75-ci sessiyası zamanı beynəlxalq ictimaiyyət Ermənistanın yeni müharibəyə hazırlaşması barədə xəbərdar edilmişdir.

Sentyabrın 27-də Ermənistanın ölkəmizə qarşı törətdiyi hərbi təcavüzə cavab olaraq Azərbaycan xalqı Vətən müharibəsinə qalxmışdır. Müzəffər Azərbaycan Ordusu hər anı qəhrəmanlıqlarla dolu 44 gün ərzində düşməni ağır məğlubiyyətə uğratmış və ölkəmizin ərazi bütövlüyünü bərpa etmişdir. Milli dövlətçilik tariximizdə və xalqımızın yaddaşında əbədi yaşayacaq şanlı Zəfər xalq-iqtidar birliyi, ordumuzun yüksək peşəkarlığı və gərgin siyasi-diplomatik fəaliyyət sayəsində əldə edilmişdir.

### Şəhidlərimizin ölməz ruhu qarşısında baş əyərək, onlara Allahdan rəhmət diləyirik…

Ordumuzun ərazi-relyef baxımından son dərəcə mürəkkəb şəraitdə və qısa müddətdə həyata keçirdiyi "Dəmir yumruq" əməliyyatı dünya hərb tarixinə düşərək, aparıcı hərbi mərkəzlər və mütəxəssislər tərəfindən öyrənilir.

Dekabrın 10-da Bakının Azadlıq meydanında keçirilmiş möhtəşəm Zəfər Paradı Azərbaycan dövlətinin siyasi, iqtisadi və hərbi qüdrətini, xalqımızın iradəsini, ordumuzun qələbə əzmini, əsgər və zabitlərimizin sarsılmaz döyüş ruhunu nümayiş etdirmişdir.

Xalqımıza milli qürur və şərəf hissini, qələbə sevincini yaşadan, üçrəngli bayrağımızı işğaldan azad olunmuş torpaqlarımızda, Qarabağın tacı olan müqəddəs Şuşada dalğalandıran müzəffər ordumuzun bütün şəxsi heyətinə bir daha dərin minnətdarlığımı bildirirəm. Şəhidlərimizin ölməz ruhu qarşısında baş əyərək onlara Allahdan rəhmət diləyir, yaralı hərbçilərimizin tezliklə şəfa tapmasını arzulayıram.

### Fədakar xidmətləri Qələbəmizə layiqli töhfə olub…

Vətən müharibəsi zamanı Azərbaycan beynəlxalq informasiya məkanında öz sözünü deyərək, ölkəmizə qarşı aparılan dezinformasiya kampaniyalarının qarşısını almış, Ermənistanın vandalizmini və mülki insanlara qarşı terror siyasətini beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmışdır.

Ermənistanın işğalı və vəhşiliyi nəticəsində başdan-başa dağıdılmış doğma Qarabağımızı əminəm ki, biz ən qısa zamanda əsl cənnətə çevirəcəyik.

Müqəddəs Vətən müharibəsi zamanı xaricdə yaşayan soydaşlarımızın düşmənin və anti-Azərbaycan dairələrin məkrli təxribatlarına qarşı cəsarətli etirazları, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində fədakar xidmətləri Qələbəmizə layiqli töhfə olmuşdur.

### Milli birliyimiz cəbhədə Azərbaycanın böyük qələbəsi ilə nəticələndi...

Əziz həmvətənlər! Doğma Azərbaycanımızın daha da güclənməsi və çiçəklənməsi naminə fəaliyyətinizdə hər birinizə uğurlar arzulayıram".

Göründüyü kimi, ölkə başçısının dünya azərbaycanlılarına ünvanladığı təbrikin mətnində biz pandemiya və Vətən müharibəsi dönəmində diasporumuzun fəaliyyətinə yüksək qiymətin verildiyinin şahidi oluruq. Doğrudan da, 2020-ci il müasir Azərbaycan diasporunun dönüş ili kimi xarakterizə olunur. Belə ki, ilin əvvəlində qəflətən dünyanı bürüyən koronavirus pandemiyası ilə əlaqədar çətin vəziyyətdə qalmış soydaşlarımıza dəstək göstərmək üçün diasporumuz çox böyük birlik, həmrəylik və humanizm nümayiş etdirdi. Pandemiya ilə başlayan bu birlik sonradan Ermənistanın Tovuz təxribatı zamanı daha da möhkəmləndi və torpaqlarımızın azadlığı uğrunda aparılan Vətən müharibəsində özünün ən yüksək zirvəsinə çatdı. 44 günlük hərbi əməliyyatlar dövründə xaricdəki soydaşlarımız siyasi baxışından, düşüncəsindən, yaşadığı ölkədən, çalışdığı yerdən asılı olmayaraq milli birlik nümayiş etdirərək, bütün imkanları ilə dövlətimizə və ordumuza dəstək göstərdi. Onlar orduya, yaralı əsgərlərə, şəhid ailələrinə, cəbhəboyu ərazilərdə yaşayan, müharibədən zərər çəkən dinc sakinlərə, şəhid ailələrinə maddi, humanitar yardımlar göndərməklə yanaşı, haqq səsimizin dünyaya çatdırılmasında da böyük mütəşəkkillik və fədakarlıq ortaya qoydu. Milli birliyimiz cəbhədə Azərbaycanın böyük qələbəsi ilə nəticələndi və beləliklə, Azərbaycan xalqı və dövləti ilə bərabər diasporumuz da yeni bir mərhələyə qədəm qoydu.



### Diasporla İş üzrə Dövlət Komitəsi də…

Məhz bunun nəticəsidir ki, Diasporla İş üzrə Dövlət Komitəsi bu il "Dünya azərbaycanlılarının həmrəyliyi" günü münasibətilə Azərbaycan diasporunun fəaliyyətinə mühüm töhfələr verən diaspor təşkilatlarının üzvlərinə və diaspor fəallarını "Diaspor fəaliyyətində xidmətə görə" medalı ilə təltif edib. Təltif olunan soydaşlarımız diasporun Azərbaycan Respublikası ilə əlaqələrinin möhkəmləndirilməsində, beynəlxalq aləmdə Azərbaycanla bağlı obyektiv informasiyanın yayılmasında göstərdikləri xidmətlərə, eləcə də Azərbaycan dilinin və mədəniyyətinin xarici ölkələrdə təbliğinə, Azərbaycan Respublikasının beynəlxalq aləmdə ikitərəfli və çoxtərəfli əlaqələrinin inkişafındakı rollarına görə həmin medala layiq görülüblər. Dövlət qurumunun yaydığı məlumatda da diaspor nümayəndələrimizin Tovuz hadisələri və Vətən müharibəsi başlayan gündən Azərbaycan Prezidentinin çağırışına cavab olaraq dünya azərbaycanlılarının ayağa qalxdığı, Azərbaycana dəstək məqsədilə ümumilikdə 182 aksiya, yürüş-mitinq keçirildiyi, soydaşlarımızın müxtəlif beynəlxalq təşkilatlara, səlahiyyətli şəxslərə minlərlə bəyanat ünvanladığı, dünyanın, demək olar ki, hər yerində diaspor fəaliyyəti və aksiyalarla bağlı 26 dildə məlumat yayıldığı bildirilib. Həmçinin qeyd olunur ki, koronavirus (COVID-19) pandemiyası dövrü Azərbaycan diasporunu daha bir sınaqdan üzüağ çıxardı. Görünən budur ki, diaspor təşkilatları və fəalları ölkəmizin diaspor siyasətinə böyük töhfələr verir və bunun nəticəsidir ki, bu il 30 ölkədə yaşayan 92 nəfər "Diaspor fəaliyyətində xidmətə görə" medalı ilə təltif olunub.

### "Prezidentin təbrik nitqindən gördük ki, Azərbaycan dövləti hər bir kiçik jestə görə də minnətdarlıq etməyi bacarır"

Naxçıvanda Sərhəd Hərəkatına rəhbərlik etmiş şəxslərdən olan tanınmış hərəkatçı Bünyamin Qənbərli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu il həm də xaricdəki diasporumuz üçün mühüm sınaq ili oldu: "Çox vaxt belə fikirlər işlədilirdi ki, erməni diasporu Ermənistan dövlətinə kömək edir, ancaq bizimkilər dövlətdən nəsə umur. Bu sınaq göstərdi ki, vəziyyət heç də təsvir olunduğu kimi deyil. Bəli, bizim diasporumuzun dövlətimizdən umacağı var, o da diqqətdir. Pandemiya, ermənilərin Tovuz təxribatı və 44 günlük Vətən müharibəsi göstərdi ki, diasporumuz hər zaman dövlətimizin yanında olmağa hazırdır. Bu müddət ərzində diasporumuz canı ilə və maddi imkanları ilə vətənizin yanında oldu. Prezidentin təbrik nitqindən gördük ki, Azərbaycan dövləti hər bir kiçik jestə görə də minnətdarlıq etməyi bacarır. Hətta diaspor sahəsində xidmətlərinə görə medalla təltiv olunanlarla bağlı Diaspor Komitəsi ölkəmiz üçün həssas məqamlarda diasporumuzun dəstəyini xüsusi qeyd edib. Bu qarşılıqlı anlaşma şəklində olan fəaliyyət diasporumuzun gücünə əlavə güc qatacaq. Bizim əksər diaspor nümayəndələrimizin maddi ehtiyacı yoxdur. Yalnız mənəvi dəstəyə ehtiyacı olan soydaşlarımız üçün isə ölkə başçısının xüsusilə vurğuladığı minnətdarlıqdan yüksək stimul ola bilməz. Mən əminəm ki, bundan sonra da diasporumuzun fəaliyyəti qürurverici olacaq".

### "Diasporumuz dövlətimizi, biz isə xaricdə yaşayan soydaşlarımızı əvəzsiz sərvətimiz kimi qəbul edirik"

Həmsöhbətimiz bildirdi ki, 30 il bundan əvvəl Naxçıvanda SSRİ sərhədini sökəndə məhz bu amalı nəzərə alıblar: "Biz bilirdik ki, azərbaycanlıların sayı yalnız bizim coğrafiyada yaşayanlarla məhdudlaşmır. Onlara əlimizin çatması üçün atılacaq ilk addım imperiya sərhədlərinin sökülməsi idi. Çox xoşbəxtik ki, SSRİ sərhədi ilk olaraq məhz Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanda söküldü. Həmin hadisələrin canlı iştirakçısı olmağımın qürurunu bu gün daha çox hiss edirəm. Sevinirəm ki, gördüyümüz iş öz bəhrəsini verir. Azərbaycan dünyada yaşayan 50 milyonluq soydaşımızın dövləti və vətənidir. Proseslər göstərir ki, bu yalnız sözdə ifadə olunan fikir deyil. Görünür ki, diasporumuz dövlətimizi, biz isə xaricdə yaşayan soydaşlarımızı əvəzsiz sərvətimiz kimi qəbul edirik".

Bünyamin Qəmbərli fürsətdən istifadə edərək, qəzetimiz vasitəsilə bütün dünya azərbaycanlılarını bu bayram münasibətilə təbrik etdiyini bildirdi.

*Məhəmmədəli QƏRİBLİ*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**